Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 22 (1152) 07 iyun 2023-cü il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır

# SÖZÜN SAVAŞ MEYDANINDA

## *Ramiz Duyğunun "Qalibiyyət dastanı" poeması üzərində düşüncələr*

*Sözün savaş gücünə meydan aç, komanda ver,*
*Qalibiyyət dastanı yazılsın bu anda ver;*
*Ulu türkün yolundan əbədi dönməzliyin,*
*Əzmini, qüdrətini qanda gətir, canda ver.*

*Əli Rza* Xələfli

***Hər sözün bir əsgər, şeirim savaş meydanı.***

***(Bu sözləri elə Ramiz Duyğunun öz səsi kimi eşidirəm).***

Ramiz Duyğunun vətəndaşlıq yolu onun poeziyasından keçir; bir az da dəqiqləşdirsək, poeziya onun üçün vətənin həqiqətləri naminə bir vətəndaşın savaş meydanı olub. Bu meydanda onun hər sözü bir əsgər, döyüşçü gücündə görünür. Onun 50 illik, bəlkə də 60 illik yaradıcılıq yolu odlu-alovlu nəfəsinə bələnmiş sözünün yaratdığı zəngin bir aləmi var. Əlbəttə, Ramiz Duyğun son dərəcə emosional bir şair kimi həyatın bütün rənglərini bəsirət gözü ilə müşahidə edə bilir. Ən başlıcası, bütün müşahidələrini ardıcıl və davamlı olaraq poeziyaya gətirir. İnsanın varlığından keçən hisslər ağrı, acı da yarada bilir. Yüksək ovqat da təlqin edir. Ramiz Duyğun da aldığı hissləri, ovqatında yaranan duyğuları yüksək ilhamla lirikaya çevirir. Şübhəsiz, onun lirikasında təbiət də görünür. Xüsusilə Azərbaycan təbiətinin sevgiyə meydan açan mənzərələri şeir olur, poeziya olur. Bu mənzərələrdə biz insanın ruhuna qucaq açan Muğanı da görürük, illər boyu həsrət nəğmələri oxuyan Arazı da duyuruq. Əzəməti, qüruru ilə Şahdağı heyran-heyran süzürük. Qarabağın ağrı-acılarından ün dəririk...

Yaddaşımda qalan odur ki, Ramiz Duyğun yapışıqlı, məxməri səsi ilə İkinci Cahan müharibəsinin Azərbaycandan Almaniyaya qədərki yolunu "Hünər" verilişində keçib. Birinci Qarabağ savaşının əsgərləri əslində hünər ruhunda böyümüş olan oğullar idi. Mən inanıram ki, inadla, inamla həmin oğullar zamanın bəd çağlarında düşmənin məkrli gücə arxalanan dövranında ona görə sınmır, qırılmırdılar ki, varlıqlarında "Hünər"in sədası onlarla idi. Bircə cümlə də deyib mətləbə keçmək istərdim. Mən inanıram ki, "Hünər" verilişinin tarixi bir zaman əldə qalan lentlər əsasında vətənsevərlik dərsliyi kimi öyrəniləcək. Və elə buradaca onu da qeyd edirəm ki, Ramiz Duyğunun alovlu poeziyası üçün ilkin mənbə elə "Hünər" olub. Azərbaycan oğlunun faşizmə qarşı savaşında yenilməzlik ruhu Ramiz Duyğunun səsi ilə qan kimi, can kimi, nəfəs kimi, hava kimi zirehli mündir altında çırpınan kövrək qəlblərə hopub.

Ramiz Duyğun "Məni döyüşə burax" adlı kitabında savaş istəyinin qarşısıalınmazlığını bir bəyanat kimi Azərbaycan cəmiyyətinə vermişdi. Onun döyüşən poeziyası Azərbaycan əsgərini düşmən üstünə yeriməyə çağırış ruhunda idi. Və nəhayət, "Məni döyüşə burax" deyən şairin səsi eşidildi. Onun güvəndiyi, arxalandığı Azərbaycan ordusuna "düşmən üzərinə yürü" əmri verildi. Bu, Ali Baş Komandanın tarixi əmri idi. "Dəmir yumruq" qılınc kimi siyrilmişdi.

44 günlük savaşın keçdiyi yol hələ bizdən çox da uzaqlaşmayıb, hələ ruhumuzla həmin savaşın içərisindəyik. Şübhəsiz, şair Ramiz Duyğun da sözü ilə, nəfəsi ilə bu savaşın önündədir, başqa sözlə, 44 günün ön cəbhəsində.

Səngərdə əsgər yeriyirdi, ölümün, qanın üstünə yeriyirdi. Direniş göstərən yağını əzərək yeriyirdi. Amma şairin hissləri, həyəcanları qalibiyyət dastanı yazmaq üçün tələsirdi. Hisslərilə duyğuları ilə ordunun sürət həddini keçirdi. O, tələsirdi. Qalibiyyətə Azərbaycan əsgəri ilə bir zamanda çatmaq üçün tələsirdi.

Tarixin möcüzələri çoxdur. Necə ki, təbiətin möcüzələri var. "Qalibiyyət dastanı" kimi bir əsərin yazılmasına 20 ildən çox vaxt sərf olunmuşdu. Bu, intizar vaxtı idi. Bu, gözləmə vaxtı idi. Və üstəgəl 44 gün. Şuşada qələbə toplarının sədası gələn anda artıq qələm şairin əlində idi.

Şuşanın azadlığı günü - 8 noyabr. Ali Baş Komandan ekrandan qələbə xəbərini bəyan edir. Ürəyi çırpınan, gözləri sevinc yaşalrı ilə dolan şair qürurla qalxıb-enən köksünü masaya gərir və öz səngərinə keçir. İndi onun qalibiyyət sədası qələmindən süzülüb kağıza hopur. Və məhz həmin qələbə günü "Qalibiyyət dastanı" adlı lirik poema yaranır. Əsər əzəlindən axırınacan yüksək pafos, emosional hisslə yazılıb. Şair mətnin əvvəlində "Noyabrın 8-də qədim şəhərimiz Şuşa erməni daşnak faşist işğalından azad edildi" xəbəri ilə sözünə başlayır. Elə bunun arxasınca qədim tarixə yox, yaxın zamana üz tutur: "Üz tuturam Ulu Öndər Dədə Heydər ruhuna". Əlbəttə, buna ədəbi düşüncə adamları epiqraf deyir. Zənnimcə, elə bu epiqrafın özü də çox mətləblərdən xəbər verir. Vaxtı ilə ulu öndər həyatının son çağlarında "mən İlham Əliyevə özüm qədər inanıram" demişdi. İndi şairin də epiqraf olaraq onun ruhuna müraciət etməsi, zənnimcə, tam başa düşüləndir. Yadımızdadırsa, gərək etiraf edək. Ali Baş Komandan İlham Əliyev Şuşanın azad edilməsi xəbərini verərkən "mən xoşbəxtəm ki, ata vəsiyyətinə əməl etdim" sözlərini deyərkən hansımız kövrəlməmişik. Əsər yüksək emosional duyğu ilə qanı coşduran bir əhvalla öndərə müraciət edir:

Bayraqdarım, öndərim!
Ölməz ruhun şad olsun,
Məzarın nurla dolsun!
Gülüstan, abad olsun!

Qəhrəman millətimiz,
Soyadımız, soyumuz,
Çörəyimiz, suyumuz,
Torpağımız şad oldu!
Şuşamız azad oldu!

Bu yol sənin getdiyin,
Qoyub getdiyin yoldu!

Bu marş ruhlu könülləri qanadlandıran və həm də şairin ilhamını köhlən kimi sözün meydanına çəkən duyğular həm də gözlədiyimiz xəbərin özünü bəyan edir. Kim nə deyir, desin, söz ilahi güc kəsb edən varlıqdır. Elə bu misraları oxuyanda qanadlanıb həmin günün Şuşasına uçuruq. Qalib Azərbaycan əsgəri deyəndə ki, Şuşanın özü də bizimlə birgə vuruşurdu və biz bu sözün nə qədər həqiqət olduğunu anındaca qavrayırıq. Sözün həqiqi mənasında, həmin gün Şuşanın daşı da, divarı da cana gəmişdi. Hər bucaq, hər tin Azərbaycan əsgərini çağırırdı: Bəri gəl, mən səni qoruyaram. Şair məhz bu hisslərin təsiri altında özünün intəhasız fantaziyası ilə yazı masasının arxasından qanadlanıb həmin zaman uçur, həmin ana uçur və dünyanı silkələyəcək xəbəri poetik əhvalla, odlu nəfəslə çatdırır:

Qoy eşitsin bütün dünya,
Qoy eşitsin yaxın-uzaq,
Qoy eşitsin oğul-uşaq.
Qoy eşitsin düşmənim də!
Sən günəştək yanacaqsan!
Tarix boyu
Mənim milli mənliyimdə,
"mən"imdə!

Sən böyük millətimin
Adı-sanı, şərəfi,
Şöhrətisən, şanısan!
İyirminci yüzilliyin
Vahid qəhrəmanısan!

Nə üçün Şuşanın daşının, divarının həmin savaş günündə canlı olduğunu yada saldıq. Çünki bu tarixi zərurətin doğuluş anı idi. Və həmin gün ulu öndər də "dəmir yumruq"un əzmi, gücü ilə Azərbaycan əsgərinin önündə, bir az da dəqiqləşdirsək, düşüncəsində, varlığında Şuşada mövqe tutmuş düşmənin üstünə yeriyirdi. Şair öndə işıq kimi parlayan öndər ruhunu millətin adı, sanı, şərəfi kimi görür. Ən başlıcası, Azərbaycan tarixinin son yüz illiyində mübahisəsiz tarixi həqiqət və eyni zamanda əfsanəvi qəhrəman kimi görür.

Ulu öndər Azərbaycan əsgərinin önündə idi. Komandanın ruhuna, varlığına hopub əmrlər, göstərişlər verirdi. Şübhəsiz, Azərbaycan əsgəri Ali Baş Komandanın əmrlərini həm də ulu öndərin əmri kimi qəbul edirdi. Ali Baş Komandanın səsi sanki ulu öndərin dili ilə danışırdı. Ramiz Duyğun bütün odu ilə, alovu ilə tarixi şəxsiyyətin gücünü onun bütün varlığını, ruhunu sanki canlanan sözünə gətirir. Hər bir misranın yaratdığı emosional hissin altında canlı insan nəfəsi duyulur.



Azərbaycan ordusunun Ali Baş Komandanı həmin günlərdə ordu ilə birgə savaşırdı. Özü də təkcə erməni faşizminə qarşı yox. Min bir məkr və hiylə ilə düşmənin tərəfində duran qüvvələrə qarşı vuruşurdu. Sözün həqiqi mənasında Ali Baş Komandan həmin günlərdə millətin milli ruhunun keşiyində durmuşdu. Varlığımıza yönəlik olan niyyətlərin hamısını dəmir məntiqi ilə dağıdırdı. Və onun milli qəhrəmanlıq ruhunu da biz Ramiz Duyğunun bu alovlu poeziyasında çox aydın hiss edirik:

Bu gün isə
Millət ilə, xalqla dolu,
Vətəninə, torpağına
Eşqlə dolu, haqla dolu,
İlham Ulu Öndər oğlu,
İlham Dədə Heydər oğlu,
Millətimin adı-sanı,
Şöhrətidi, şanıdı!
Ordumuzun Ali Baş Komandanı,
İyirmi birinci əsrin
Vahid qəhrəmanıdı!
Milli qəhrəmanıdı!

Onun idrakı ilə,
Onun zəkası ilə,
Onun fitrəti ilə,
Onun qüdrəti ilə
İnsanlığın
Əhrimənі faşizminin,
Bəşərin yaman şişi,
Dünyanın xərçəng şişi,
Erməni faşizminin
Nəfəsini kəsdik, əhdini kəsdik.
Onun zəhərlə dolu
İlan başını əzdik,
Gürzə başını əzdik!

*(Davamı 4-cü səhifədə)*

# SÖZÜN SAVAŞ MEYDANINDA

*(Əvvəli 1-ci səhifədə)*

Şair söz üzərində əsmir. Sözü cilalamağı ağlına da gətirmir. Çünki bu elə sözdür ki, az qala otuz il ərzində cilalanıb. Bu elə sözdür ki. şairin poeziya kürəsində dəfələrlə yanıb, qovrulub, bişib. Özünün hədəflərini görüb, sərhədlərini tanıyıb. Kimin kim olduğu həqiqətini görüb. Ona görə də Ramiz Duyğunun yağını yamanlayan misralarını elə öz əzmimiz, gücümüz kimi hiss edirik. Bir sözlə, Ramiz Duyğunla, Azərbaycan ordusuyla birlikdə ilanın başını əzirik. Şairin alqış sədalarını öz ruhumuzun səsi kimi eşidirik:“Alqış ucalığına, Alqış üzağlığına!”. Bundan sonra şair o qədər bəxtiyar, o qədər mənən uca görünür ki, artıq dünyanın bütün rənglərini özündən aşağıda görür.

Ən başlıcası, ona görə ki, o, məğlubiyyət zəhəri içirilmiş düşmənin başını ayaqları altında görür. Elə ona görə də yer üzünün tufanları, qasırğaları, ildırımları neyləsə də, şairin qalxdığı ucalığa qalxa bilməz. Və şair bu ucalıqdan yer üzərindəki təntənəyə baxır. Qarabağın dağları sevinir, quşları nəğmə deyir. Onun arzuladığı xəbər Şahdağdan Savalana uçur. İllərlə qalibiyyət addımlarına həsrət olan Xudafərinə çatır. Böyük arenada Azərbaycan ruhunun hərəkəti gözlərimiz önündə canlanır. Şair bütöv Azərbaycan əzmi ilə birlikdə üzü gələcəyə uğur yolu tutub. Bu günə qədərki kədər nəğməsi oxuyan Qarabağ şikəstəsi indi onun varlığında təntənə himninə çevrilir:

Qoy dəryalar şahə qalxsın,
İldırımlar şaxısın!
Meşələr bəhsə girsin,
Quşlar səs-səsə versin.
Bütün dünyanı tutsun,
Onların şaqraq səsi.
Qitə-qitə yayılsın,
“Qarabağ şikəstəsi”.
Savalan Şahdağıyla
Qalxıb qol-qola girsin.
Xudafərinə gedən
Bir qədim yola girsin.
İki qardaş baş-başa
Dağı-daşı dolansınlar.
Sevinc, qürur içində
Təbrizə yollansınlar,
Bakıya yollansınlar...

Şairin varlığında dil açan obrazlar elə canlanır ki, biz bütöv Azərbaycanı görürük. Bu, Azərbaycanın səsi, sorağı Azərbaycan şairinin sözlərindən keçir. Azərbaycanın tərənnümü onun təbiətini... Arazlığını, Kürlüyünü, Muğanını, Şirvanını, Milini sözün rəngləri ilə boyayır. Bu rənglərin açımında Azərbaycan xəritəsi görünür. Ən uca Dağlar başı meydanda Azərbaycan bayrağı dalğalanır:

Ucalıqdan uca başlı Azərbaycanım!
Tarixdən də qoca, yaşlı Azərbaycanım!
Alqış bu gününə, bu növrağına.
Şuşada dalğalanan Üçrəngli Bayrağına!

Bayrağın rəngləri də şair üçün canlı varlıqdır. Elə bil ki, indi bu rənglər daha parlaq görünür. Çünki şair qələbə sevinclərini yaşayır, qələbə duyğuları üstündə köklənib. Onun nəzərlərində dünyanın ən parlaq rənglərini özündə ehtiva edən Qarabağ indiyəcən qara rəngdə görünürdü, indi bu qaralıqdan əsər-əlamət qalmayacaq.

Şair tarixə nəzər salır. Qarabağın yaşadığı ağrıları, dərdi canından keçirir. Ancaq indi o kədərli deyil, qürurlu göz yaşları söz qələmdən keçib töküldükcə onun da yanaqlarından bu yaşlar süzülür. Bəli, bunlar vətən sevdalı bir şairin qürurlu göz yaşlarıdır.

Qürurun da ağlamağı var, ancaq bu ağlayış ucalığa səsləyişdir. Oddan, alovdan qalibiyyətlə çıxmağın sevincinə bələnmiş göz yaşlarıdır. Şair isə odlu duyğuları ilə zamanı, tarixi və bəlkə də daha dəqiq desək, Qarabağdan bu yana vətənin hər küncünə, bucağına muştuluq sədası göndərir:

Qara geyinməsin bir də Qarabağ,
Bir də çatılmasın qara qaşları,
Çevril, Azərbaycanım, bir dön dala bax,
Gözlərdən sellənir sevinc yaşları...

Zər-xara geyinsin ellər, obalar,
Bayram alovuyla yansın sobalar.
Alqış növrağa, bu günə alqış!
Zəfər alovuyla sən də yan, alış!

Şairin yağını yandıran atəşləri, odları ilə eyni zamanda ruhunun alovları sözün içindən dilim-dilim göyə ucalır.

Azərbaycan taleyini yeni zamana çatdıran qeyri-adi bir ocaq yanır Qarabağda. Bu, uçulmuş evin yerində qalanan ümid, inam ocağıdır. Şair bir nənənin cəhrəsi ilə iztirabları dilə gətirən duyğularla danışır. Bir gözəlin qəm dolu çöhrəsindən oxunan mənaları sözə gətirir. Ağbirçəklərin, ağsaqqalların nurlu üzlərini xalqın varlığında parlayan bir günəş kimi görür:

Ucalsın alovlar qoy dilim-dilim,
Alov-alov yansın hər obam, elim.
Ağabəyim nənəm cəhrə əyirsin,
Bahram cəhrəsi!
Şuşa tənəsindən qırışla dolmuş
Nurlu çöhrəsi,
Dönsün bir gözəlin gül yanağına,
Ağbirçək çağında bir bəzərk olsun,
Onun nurlu üzü el yığnağına!

Yeri gəldikcə Ramiz Duyğun tarixlə də dilləşir. Ötmüş zamanların zəfər döyüşlərini yada salır. Konkret olaraq, qəhrəman Azərbaycan sərkərdələrinin adlarını çəkməsə də, tarix boyu cahangirlərin qabağında diz çökməyən oğulların tərənnümündə biz Babəkin obrazını görürük, Xətaini görürük. Dünyanın nəhəng imperiyalarından birini yaratmış Nadir şahı görürük. Azərbaycan ucalığının gücünü, qüdrətini görürük. Ancaq onun iti nəzərli baxışları bütün hiylələrin mahiyyətinə vara bilirdi. O, əslində hiylə donuna bürünmüş yağı həqiqətinin məqsədini, məramını bilirdi. Şairi də qəlbən ruhlandıran, onun ilhamını qanadlandıran məhz bu hisslər, bu duyğular idi.

Azərbaycanın tarixi fəlakətləri iki acgöz yırtıcının niyyətinə uyğun parçalanması ilə başlandı. Az qala, iki yüz illik bir tarix ötən zamanların fonunda heç nə vəd etmirdi. İşğaldan, köləlikdən başqa. Azərbaycanın sərvətləri talanıb gedirdi. Ən başlıcası, Azərbaycanın imzası millətlər içində yox idi. Və bu da, şübhəsiz, qara ləkələr kimi Azərbaycan mənəviyyatına hopmuşdu. Şair özünəxas bir pafosla bu tarixi ədalətsizliyi tarixin öz ləkəsi kimi xatırlayır. Ona görə qürurlanır ki, indi Azərbaycan nəyə qadir olduğunu artıq təkcə yağı düşmənə yox, elə dünyanın hamısına göstərə bilmişdi:

Görən necə yaşamışıq
Neçə yüz il
Bu dərdi çəkə-çəkə?!
Üzümüzdən silindi,
Bu gün bu qara ləkə...

Neçə əsr sel tək axan,
Şor xəcalət tərini,
Üzümüzdən bu gün sildik.
Rahat, azad nəfəs almaq
Nə deməkdir, bu gün bildik.

Bu namus ləkəsiydi,
Bu əxlaq ləkəsiydi,
Bu vicdan ləkəsiydi,
Bu torpaq ləkəsiydi,
Bu vətən ləkəsiydi!
Üzümüzdən silməsəydik bu ləkəni,
Bizdən sonra
Neçə-neçə nəsillər
Bu dərdi çəkəsiydi...

şair daha sərrast bir məqama gəlib çatır. Bu günə qədərki Azərbaycan zəfərlərinin hamısından Şuşa zəfərini daha ucada görür: “Tarix boyu heç bir şahın, cahangirin qabağında,Əyilib diz çökməmisən. Xaqanların, zalımların qabağında-Göz yaşları tökməmisən. Mən nə deyim, özün oyat tarixləri Özün, özün danışdır! Min bir illik tarixində belə Zəfər olmamışdır!”. Yağı qabağında əyilməyən, ölüm qorxusundan dizi titrəməyən oğulların tərənnümü sözlərin gülü, çiçəyi ilə bəzənir. Azərbaycanın tarixi taleyinin min illərə işıq ola biləcək bir gününü yaşamaq vətənin dərdi ilə bağrı şan-şan olan bir şairin ən böyük xoşbəxtliyidir. Şair bu xoşbəxtliyi ona bəxş etmiş Azərbaycan əsgərinə hər sözünün arasında alqış sədaları ilə ərməğanını göndərir:

Alqış ucalığına!
Alqış üzağlığına!
Şuşasız, Qarabağsız
Bu azadlıq, istiqlal
Bizə halal olmazdı.
Bu, azadlıq olmazdı!
Bu, istiqlal olmazdı!

Tarix boyu üzdü səni,
Min bir üzlü hiylələr,
İftiralar, riyalar.
Bu gün gəlib
Diz çöksünlər qarşında,
Bir vaxt səni iki yerə,
Bölən imperiyalar!...

Məlumdur ki, işğalın davam etdiyi otuz il ərzində dünyanın güc mərkəzlərinin istəyi ilə ikibaşlı oyun göstərən barışdırıcı missiya əslində dırnaq içərisinə alınmalı olan bir təşkilat bütün hiylələri ilə Azərbaycanı tovlayıb seperatçıların istəyinə gətirmək məqsədi güdürdü. Ancaq buna nail ola bilmədilər. Azərbaycan diplomatiyasının arxasında qüdrətli Azərbaycan prezidentinin təfəkkürü dayanırdı.

Zaman-zaman həqiqətlər hiylələrin toruna düşə bilər. Həqiqətlər bu torlarda çırpına bilər. Onu xilas edəcək gücü gözləyə bilər. Amma ölə bilməz. Şair bütün hissləri, duyğuları ilə həqiqətlərin ölməzliyini tərənnüm edir.

Ölməzlik... bu elə bir fenomendir ki, yurdun təbiətindən can götürür. Millətin ruhundan güc alır. Yalnız bu güclə özünü toparlaya bilir. Qəddarlığa, haqsızlığa qarşı dirəniş göstərə bilir. Necə ki, Azərbaycan ordusu ölməzlik fenomeninə güvənərək Şuşa keçilməzliklərini keçə bildi. Azərbaycan ordusu Şuşada qeyri-adi qalibiyyətin sevinclərini yaşadı və eyni zamanda bu sevincləri vətənə yaşatdı.

Ramiz Duyğun alovlanan poetik ruhu ilə sevinən Şuşanın ən uca yerində dayanıb. Biz onu öz sözündə görürük:

Bu gün başımız uca,
Bu gün üzümüz ağdı!
Şuşada dalğalanan üçrəngli
Haqdan gələn bayraqdı!..

Biz bunu etməsəydik,
Tarix boyu olardı,
Bu dünya haramımız,
Bu həyat haramımız.
Səkkiz noyabr bizim
əbədi bayramımız,
Tarixi bayramımız!

Sözün həqiqi mənasında Şuşanın azadlıq günü Azərbaycanın tarixi bayramıdır. Qürurla xatırlanası, zaman-zaman ən uca kürsülərdən tərənnüm olunası bayramıdır. Ramiz Duyğunun “Qalibiyyət dastanı” əsəri göstərir ki, bu bayram həm də şair bayramıdır və demək, sözün bayramıdır. “Qalibiyyət dastanı” əsərinin misraları ilə irəlilədikcə düşünürəm ki, bu tarixi bayramı, bu möhtəşəm qələbəni yalnız bu hisslə, bu duyğuyla yazmaq mümkün ola bilərdi. Başqa cür bu qələbənin möhtəşəmliyini göstərməyə sözün gücü çatmazdı, söz özü əzilərdi, söz özü yalvarardı ki, məni Ramiz Duyğun nəfəsi ilə tərənnüm et.

Şair sonsuz sevgi ilə sözünün sonuna doğru Ali Baş Komandana üz tutur. Onu əsrin qəhrəmanı hesab edir. Yeni tarix yaradan qüdrətli sərkərdə kimi görür:

Nə qədər tərif yazsaq
Ali Baş Komandana,
Yenə, yenə də azdı!
Xalqımın canı, qanı!
O, bu əsrin qəhrəmanı!
Şanlı tariximizdə
Yeni tarix yaratdı,
Yeni tarix də yazdı!

Bundan sonra
Günəş də dan üzündə,
Üçrəngli bayraq kimi görünsün.
Tarixlərin yaşıdı
Qalib Azərbaycanım
Üçrəngli bayrağıma
Əbədilik bürünsün.

Bəli, bu elə qələbədir ki, onun ruhu üçrəngli bayrağın özündə ehtiva olunub. Bir daha biz bayrağı üç rəngin vəhdətində elə vətənin gücü kimi görürük. Xalq birliyində onun bayrağı yenilməz olur, gücü tükənməz olur. Ramiz Duyğun bu qələbənin əsas qaynağı kimi xalq birliyini görür. Xalqın bütövlüyü, aydın məqsəd və məram naminə birliyi Azərbaycan ordusuna yenilməzlik bəxş etdi. düşməni diz çökdürən bu birlik idi. Nəhayət, sözünün sonunda şair qəti hökm verir. Hər kəs bayrağın dilində danışmalıdır. Bayrağın çağırdığı məkanda birləşməlidir. Bu, Ramiz Duyğunun poetik məntiqidir, şair məntiqidir. Ona görə sarsılmazdır. Hər hansı bir şəkkak müdaxiləsi ilə öz ucalığından, öz qüdrətindən enməyən istinaddır:

Barışsın küsülülər,
Barışsın külüzlülər,
Barışsın gülüzlülər,
Bir-birinə qarışsın,
Bayrağımın Vətənə
Yaraşdığı nur kimi
Bir-birinə yaraşsın!
Bu sərt payız günündə,
Azərbaycan üfüqündə
Pardağlandı
Bahar danı, yaz danı.
El-obada nəğmə oldu,
Mahnı oldu
Qalibiyyət dastanı...

Biz bu sonuncu misraları şairin üzü gələcəyə nəsihəti, vəsiyyəti kimi oxuyuruq. Dağıldığımız, bir-birimizə qarşı qəzəb və kin gücündə dirəniş göstərdiyimiz zamanların gətirdiyi fəlakətləri gərək unutmayaq. Dədə-baba dili ilə desək - Harada ki, birliyimiz var, orada diriliyimiz var. Vətənsevərlik poeziyasının ən gözəl bağçasında sözün əlvan rəngləri ilə parlaqlanmış sənət gülündən söz açdıq, “Qalibiyyət dastanı”ndan danışdıq.

Bu əsər dərsliklərə salınmalı, tele verilişlərdə zaman-zaman göstərilməli, canlı epizodlarla tarixi yaddaşın ölməz nəğməsi kimi oxunmalıdır.

Əsər şairin öz evində, dünya azərbaycanlılarının paytaxtı Bakıda, 8 noyabr 2020-ci il tarixində, möhtəşəm “Zəfər” günündə yazılıb.

Zənnimcə, “Qalibiyyət dastanı” həmişə oxunacaq. Güman ki, bu əsər hər dəfə dillərdə car olduqca Ramiz Duyğun poeziyasına sevgi ilə yazdığım duyğulanmalarım da yada düşəcək.

O söz ki, vətəndən söhbət açır, vətən durduqca yaşayır.

*Əli Rza* Xələfli
*06.06.2023*